*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 30 dekabr tarixli 31/141-3 saylı Qərarı ilə təsdiq edilmiş, 2016-cı il 26 iyul tarixli 10/38 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

# Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün seçici imzalarının toplanması və müvafiq sənədlərin seçki komissiyasına təqdim edilməsi qaydaları haqqında

# T Ə L İ M A T

Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün seçici imzalarının toplanması və müvafiq sənədlərin seçki komissiyalarına təqdim olunması qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 57-ci, 65-ci, 66-cı və 68-ci maddələri ilə və bu Təlimatla tənzimlənir.

## I. Referendum üzrə təşviqat qrupunun yaradılması üçün seçici imzalarının toplanması

1.1. Müvafiq seçki komissiyası referendum üzrə təşəbbüs qrupunun yaradılması barədə bildirişin alınmasına dair yazılı məlumatı həmin qrupa təqdim etdiyi gündən referendum üzrə təşviqat qrupunun yaradılması üçün seçici imzalarının toplanmasına başlanıla bilər.

1.2. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri Azərbaycan Respublikasının bütün ərazisində referendumqabağı təşviqatın aparılması niyyətində olduqda, onlar referendum üzrə təşviqat qrupunun üzvlüyünə razılığa dair azı 40 min seçicinin imzasını azı 60 seçki dairəsinin ərazisində toplamalıdırlar. Bu halda bir seçki dairəsindən olan referendum üzrə təşviqat qrupunun potensial üzvlərinin sayı 100-dən az ola bilməz.

1.3. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri Azərbaycan Respublikası ərazisinin bir hissəsində referendumqabağı təşviqatın aparılması niyyətində olduqda, onlar referendumqabağı təşviqatın aparılması nəzərdə tutulan hər bir seçki dairəsinin ərazisində referendum üzrə təşviqat qrupuna üzvlüyə dair azı 100 seçici imzası toplamalıdırlar.

1.4. Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və təşviqat qrupunun qeydə alınmasından imtina üçün əsas ola bilər.

1.5. Seçici imzalarını referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri, səlahiyyətli nümayəndələr, habelə Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququ olan hər bir vətəndaşı toplaya bilər. Referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndələri seçici imzalarını toplayan şəxslə imza toplanması barədə müqavilə bağlaya bilərlər. Belə işin haqqı yalnız referendum üzrə təşəbbüs qrupunun seçki fondu hesabına ödənilə bilər.

1.6. Seçici imzaları tədris müəssisələrində, yaşayış yerlərində, eləcə də qanunla referendumqabağı təşviqat aparılmasının qadağan edilmədiyi digər yerlərdə toplana bilər.

1.7. Seçici öz iradəsinə uyğun olaraq referendum üzrə təşviqat qrupuna üzvlüyə dair yalnız bir dəfə imza etmək hüququna malikdir.

1.8. İmza vərəqəsində seçiciyə aid bütün məlumatlar müvafiq qrafalarda mütləq qeyd edilməlidir.

1.9. Seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini, verilmə tarixini və imza qoyulması tarixini göstərir. İmza vərəqəsində seçiciyə aid məlumatları imza toplayan şəxs seçicinin razılığı ilə onun əvəzinə doldura bilər (imza istisna olmaqla). İmza etmək hüququ yalnız seçiciyə məxsusdur. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.

**Qeyd:** *referendum üzrə təşviqat qrupuna üzvlüyə dair imza edən seçicilərin şəxsiyyətini təsdiqləyən sənədlərin siyahısı Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi müvafiq siyahıda öz əksini tapmışdır.*

1.10. Referendum üzrə təşviqat qrupunun yaradılması üçün imza etmək könüllüdür. Seçicinin hər hansı bir vasitə ilə (aldatmaq, fiziki və ya psixi zor tətbiq etmək, yaxud bu cür zor tətbiq etmək hədəsi ilə seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər-hansı formada mükafatlandırmaq və s.) bu hüququnun realizə olunmasına mane olmaq qadağandır və bu cür hərəkətlər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

1.11. İmza toplayan şəxs tərəfindən hər bir imza vərəqəsinin yuxarı sol tərəfində seçici imzalarının toplandığı seçki dairəsinin (ərazisinin) adı və nömrəsi göstərilməlidir.

1.12. İmza toplandıqdan sonra imza vərəqəsi imza toplayan şəxs və referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanır. İmza toplayan şəxs imza vərəqəsinə imza qoymazdan əvvəl soyadını, adını, atasının adını, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini, verilmə tarixini və imzanın qoyulduğu tarixi göstərir.

1.13. Referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi referendum üzrə təşviqat qrupunun yaradılması üçün toplanmış seçici imzalarının sayını hesablayır, seçici imzalarının toplanması haqqında yekun protokolunu

(Təlimata 1 saylı əlavə) tərtib edir və imzalayır.

1.14. Müvafiq seçki komissiyalarına təqdim edilən imza vərəqələri ardıcıl olaraq nömrələnməli və qovluq formasında səhifələnməlidir.

## II. Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün müvafiq seçki (referendum) komissiyasına seçki sənədlərinin təqdim edilməsi

2.1. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri respublika ərazisinin bir hissəsində referendumqabağı təşviqat aparmaq niyyətində olduqda, onlar referendumqabağı təşviqatın aparılması nəzərdə tutulan hər bir seçki dairəsinin ərazisində qrupa üzvlüyə dair azı 100 imza toplamalı, qrupun qeydə alınması üçün tələb olunan sənədləri ərazisində imzaların əksəriyyəti toplanmış müvafiq dairə seçki komissiyasına təqdim etməlidirlər.

2.2. Referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri respublikanın bütün ərazisində referendumqabağı təşviqat aparmaq niyyətində olduqda, onlar azı 60 seçki dairəsinin ərazisində hər bir seçki dairəsində 100 nəfərdən az olmayan potensial üzvlərin olması şərtilə qrupa üzvlüyə dair azı 40.000 imza toplamalı, qrupun qeydə alınması üçün tələb olunan sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki (Referendum) Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim etməlidirlər.

2.3. Referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün onun səlahiyyətli nümayəndəsi səsvermə gününə azı 35 gün qalmış saat 18:00-dək müvafiq seçki komissiyasına aşağıdakı sənədləri təqdim etməlidir:

2.3.1. toplanmış seçici imzaları olan imza vərəqələri;

2.3.2. seçici imzalarının toplanması haqqında yekun protokolunun 2 nüsxəsi *(Təlimata 1 saylı əlavə)*;

2.3.3. referendum üzrə təşviqat qrupunun yaradılması təşəbbüsçülərinin ilkin maliyyə hesabatı (seçici imzaları toplanmasının təşkilinə xərclənmiş vəsait haqqında məlumatlar göstərilməklə);

2.3.4. səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin razılıq məktubları *(Təlimata 2 və 2 "a" saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"a 1 və 1 "a" saylı əlavələr)*;

2.3.5. referendum üzrə təşviqat qrupunun yaradılması təşəbbüsçülərinin səlahiyyətli nümayəndələrinin siyahısı *(Təlimata 3 və 3 "a" saylı, "Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında Təlimat"a 2 və 2 "a" saylı əlavələr)*.

2.4. Müvafiq seçki komissiyası imza vərəqələrini bu Təlimatın 2.1-ci bəndində qeyd olunan müddətdə saat 9:00-dan 18:00-dək qəbul edir. Həmin müddətdən sonra təqdim olunan imza vərəqələri və onlara əlavə edilməli olan

sənədlər qanunla müəyyən edilmiş müddətdə verilmiş müvafiq sənədlərin doğurduğu hüquqi nəticəni yaratmır. Müvafiq seçki komissiyası bu halı öz qərarı ilə rəsmiləşdirməlidir.

2.5. Müvafiq seçki komissiyası seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürlə təsdiqləyir, təqdim olunmuş imza vərəqələri sayının seçici imzaları toplanmasının yekunu haqqında protokolla uyğunluğunu yoxlayır, sonra isə qəbul edilmiş seçki sənədlərinin, eləcə də imza vərəqələrinin və imza vərəqələrindəki imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir (Təlimata 4 və 4 ”a” saylı əlavələr). Arayış müvafiq seçki komissiyası katibliyinin nümayəndəsi, imza vərəqələrini və digər seçki sənədlərini həmin seçki komissiyasına təqdim edən şəxs tərəfindən imzalanır, komissiyanın möhürü ilə təsdiqlənir və bir nüsxəsi seçki sənədlərini təqdim edən şəxsə verilir.

## III. Referendum üzrə təşviqat qrupunun müvafiq seçki komissiyaları tərəfindən qeydə alınması

3.1. Müvafiq seçki komissiyası imza vərəqələrini və referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində referendum üzrə təşviqat qrupunun qeydə alınması və ya onun qeydə alınmasından imtina edilməsi barədə əsaslandırılmış qərar qəbul etməli, qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndələrinə məlumat verməlidir.

3.2. Qeydə alınmış referendum üzrə təşviqat qrupunun hər bir səlahiyyətli nümayəndəsinə qeydiyyat vəsiqəsi verilir.

3.3. Mərkəzi Seçki Komissiyası qeydə alınmış referendum üzrə təşviqat qrupları barədə məlumatları qeydiyyatdan sonra 24 saat müddətində kütləvi informasiya vasitələrinə təqdim edir. Dairə seçki komissiyaları referendum üzrə təşviqat qrupları barədə məlumatları səsvermə gününə azı 15 gün qalmış seçki komissiyasının otaqlarında məlumat lövhələrində yerləşdirirlər.

*Təlimata 1 saylı əlavə*

____________________________________________
*(referendum üzrə təşviqat qrupunun adı)*

**referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün seçici imzalarının toplanması haqqında**

**Y E K U N P R O T O K O L U**

Mən, referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi, bu protokolu tərtib etdim ondan ötrü ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq __________________________________________________________________ seçki
*(seçki dairələrinin sayı rəqəmlə və sözlə yazılmalıdır)*
dairəsinin ərazisində*__________ ______________________________
*(rəqəmlə)* *(sözlə)*
ədəd imza toplanmışdır.

İmza vərəqələrinin sayı ________ ____________________________
*(rəqəmlə)* *(sözlə)*

İmza vərəqələrindəki seçici imzalarının sayı ______________________
*(rəqəmlə)*

________________________________________________________
*(sözlə)*

İmzalar toplanarkən Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə əməl_______________________________.
*(əməl edilib-edilməməsi barədə məlumat)*

İmza vərəqələri nömrələnmişdir/nömrələnməmişdir** və qovluq formasında səhifələnmişdir/səhifələnməmişdir**.

______________________________**referendum**
*(referendum üzrə təşəbbüs qrupunun adı)*
**üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi** _____________ ________________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

"____"_____________20___ il.

*Ərazilərində imza toplanmış müvafiq seçki dairələrinin siyahısı əlavə edilməlidir.
**Müvafiq sözün altından xətt çəkilməlidir.

*Təlimata 2 saylı əlavə*

______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*
Azərbaycan Respublikasında keçirilən
______________________________________
*(seçkinin (referendumun) adı)*
seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndənin

**R A Z I L I Q   M Ə K T U B U**

Mən, ________________________________________________
*(soyadı, adı, atasının adı)*
Azərbaycan Respublikasında keçirilən______________________________
*(seçkinin(referendumun)adı)*
(namizədi) qeydə alınmış ______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*
tərəfindən səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, "___"___________ ____ildə anadan olmuşam,
*(doğum tarixi)*

______________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*
______________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və xidmət yeri,*
______________________________________________________________.
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

_________________ __________________________________________
*(imza)* *(səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

"___"_____________20 il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*

*Təlimata 2 "a" saylı əlavə*

______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən

______________________________
*(seçkinin (referendumun) adı)*

seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin

**R A Z I L I Q   M Ə K T U B U**

Mən, ____________________________________________________
*(soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikasında keçirilən____________________________
*(seçkinin (referendumun) adı)*

(namizədi) qeydə alınmış ______________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, "___"___________ 20 ___ ildə anadan olmuşam,
*(doğum tarixi)*

____________________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi*

____________________________________________________________
*və verilmə tarixi, yaşayış yerinin ünvanı, əsas iş və xidmət yeri,*

____________________________________________________________.
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

______________ ____________________________________________
*(imza)* *(maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

"___"_____________20 il
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*

*Təlimata 3 saylı əlavə*

____________________________________

*(seçki komissiyasının adı)*

____________________________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin**

## S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda-fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ______________ ________________________

*(imza)* *(inisialı və soyadı)*

Təlimata 3 ”a” saylı əlavə

______________________________________

*(seçki komissiyasının adı)*

________________________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

**siyasi partiya, siyasi partiyaların bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

## S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda-fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ____________ ____________________________

*(imza)* *(inisialı və soyadı)*

*Təlimata 4 saylı əlavə*

“____”_______________20___ il.

Saat _____

**A R A Y I Ş**

Verilir _____________________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinin soyadı, adı və atasının adı)*
ondan ötrü ki, o, həqiqətən ________________________________________
*(referendum üzrə təşviqat qrupunun adı)*
referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün aşağıdakı sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.
7.

**Azərbaycan Respublikasının**
**Mərkəzi Seçki Komissiyası**
**Katibliyinin nümayəndəsi** ___________ ____________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y

**Referendum üzrə təşəbbüs**
**qrupunun səlahiyyətli**
**nümayəndəsi** ___________ ____________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

*Təlimata 4 ”a” saylı əlavə*

“____”_______________20___il

Saat ______

# A R A Y I Ş

Verilir ______________________________________________________
*(referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsinin soyadı, adı, atasının adı)*
ondan ötrü ki, o, həqiqətən____________________________________________
*(referendum üzrə təşviqat qrupunun adı)*
referendum üzrə təşviqat qrupunun yaradılması üçün aşağıdakı sənədləri ______ saylı seçki dairəsinin dairə seçki komissiyasına təqdim etmişdir:

1.
2.
3.
4.
5.
6.
7.

**Dairə seçki komissiyasının sədri** ___________ ________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*

M.Y

**Referendum üzrə təşəbbüs qrupunun səlahiyyətli nümayəndəsi** ___________ ________________________
*(imza)* *(soyadı, adı, atasının adı)*